## MÜŞFİQİ ÖLDÜRDÜLƏR

Müşfiqi öldürdülər
Qarlı bir qış səhəri
Dan yeri sökülәndə
Buzlu qarın üstünə
İsti qan tökülәndə
Lərzəyə gəldi torpaq...
Tükü də tərpənmədi
Güllə atanın ancaq –
Çaxmağı bir də çaxdı,
Çaxdı o qansız, alçaq.

Şair ölümdən qabaq
Buludlu qış göyündə
Açılan sübhə baxdı,
Ölüm necə yaxındı...
Həyat necə uzaqdı...
Doldu pərişan gözlər...
Hayqırdı:
– Ey alçaqlar!

Şairi öldürməzlər!
Şairi öldürdülər
Ancaq əliqanlılar
Sübhün gözəl çağında,
Öz doğma torpağında.
Bu gülləni atanın,
Bu fərmanı verənin
Qoy adı bəlli olsun!
Onları lənətləyək,
Bizə təsəlli olsun.

Güllə xəlvət atıldı,
Səsi illərə çatdı.
O güllənin zərbəsi
Xalqımızı illərlə
Nəsil-nəsil ağlatdı.

*1981*

**Dilbazi M.** Müşfiqi öldürdülər : şeir : ithaf // Seçilmiş əsərləri. - Bakı : Lider, 2004. - S. 115-116